**İQTİSADİYYAT**

**ЭКОНОМИКА** **ECONOMICS**

*http://doi.org/10.58225/sw.2024.1-123-131*

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN SƏMƏRLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Aslanova Turan Tofig-** PhD in econ., ass.prof., department of Organization and management of industry, AzUAC, turan.aslanova@mail.ru
**Fatahova Nargiz Rafael-** PhD, department of Economic theory and marketing, AzUAC, nargiz.fataxova@mail.ru

**Xülasə.** Tədqiqatın məqsədi – xarici ticarətin səmərəlilik göstəriyinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi, eləcədə təqdim edilən metodologiyalardan istifadənin xüsusiyyətlərinin araşdırılmasıdır. Tədqiqatın metodologiyası - tədqiqat işində müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, sistemli yanaşma, sintez və analiz metodlarından istifadə edilib. Tədqiqatın tətbiqi əhəmiyyəti – hazırda ölkə iqtisadiyyatında xeyri-neft sektorunun inkişaf etdirilməsi xüsusi aktuallıq daşıyır. Bu baxımdan tədqiqatda araşdırılmış əsas məsəllər ölkə xarici ticarət əlaqələrinin səmərəlilik göstəricilərinin müəyyən olunması və qiymətləndirilməsi təşkil edir. xarici ticarət əlaqələrinin səmərlilik göstəricilərinin müəyyən olunması və tətbiqi ölkə iqtisadiyyatı üçün xüsusi əhəmiyyət kəsb edir. Tədqiqatın nəticələri – Araşdırılan nəzəri-metodoloji məsələlər və bu əsasında ölkənin ixracı, idxalı üzrə diversifikasiya əmsalı hesablanmış və alınan nəticələr isə elmi baxımdan şərh edilmişdir. Tədiqiqatın orijinallığı və elmi yeniliyi – Tədqiqat zamanı xarici ticarət əlaqələrinin səmərəliliyini qiymətləndirmək üçün müasir yanaşmalardan istifadə edilmiş və Grubel-Lloyd indeksi, iqtisadiyyatın diversifikasiya əmsalı hesablanmışdır. Alınan nəticələr müasir dövrün ölkə iqtisadiyyatı üçün aktuallıq qazanılır.

**Açar sözlər:** İxrac, idxal, Grubel-Lloyd indeksi, diversifikasiya əmsalı səmərəlilik, ixrac kvotası, ÜDM, valyuta, və s.

# EVALUATION OF THE EFFECTIVENESS OF FOREIGN TRADE RELATIONS OF THE REPUBLIC OF AZERBAIJAN

**Aslanova Turan Tofiq qızı**– i.ü.f.d., dos., Sənayenin təşkili və idarə edilməsi kafedrası, AzMİU, turan.aslanova@mail.ru
**Fətahova Nərgiz Rafael qızı**- i.ü.f.d., İqtisadi nəzəriyyə və marketinq kafedrası, AzMİU, nargiz.fataxova@mail.ru

**Abstract.** The purpose of the research is to determine and evaluate the foreign trade efficiency index, as well as to examine the characteristics of using the presented methodologies. Research methodology - comparative analysis, logical summarization, systematic approach, synthesis and analysis methods were used in the research work. Application importance of the research - currently, the development of the non-oil sector in the country's economy is of particular importance. From this point of view, the main issues investigated in the study are the determination and evaluation of the efficiency indicators of the country's foreign trade relations. determination and application of efficiency indicators of foreign trade relations are of particular importance for the country's economy. The results of the research - The theoretical and methodological issues investigated and the diversification coefficient of the country's export and import were calculated based on this and the results were interpreted from a scientific point of view. Originality and scientific novelty of the research - During

the research, modern approaches were used to evaluate the efficiency of foreign trade relations, and the Grubel-Lloyd index, the diversification coefficient of the economy was calculated. The obtained results are relevant for the modern economy of the country.
**Keywords:** Exports, imports, Grubel-Lloyd index, diversification efficiency, export quota, GDP, currency, etc

**Giriş.** Səmərəlilik iqtisadiyyatın ən vacib və demək olar ki, bir nömrəli problemidir. Bütün ölkələr iqtisadiyyatlarını səmərəlilik prinsipləri əsasında qurmağa çalışır. Bu baxımdan səmərəlilik iqtisadi təcürbənin əsas konsepsiyası hesab edilir. İqtisadi təcürbənin ən əsas konsepsiyası olması fikiri onunla izah edilir ki, müasir dövrdə iqtisadi fəaliyyətin hər bir sferasında iqtisadi səmərəliyin üzə çıxartmaq üçün ciddi səylər göstərilir və buna müvafiq addımlar atılır. Səmərəliliyə iqtisadiyyatın bütün sahələrində tələbin yüksək olması onu deməyə əsas verir ki, səmərəlilik həm də iqtisadiyyatın əsas problemlərindən biridir.

Nəzəri yanaşmalar göstərir ki, səmərəlilik insan fəaliyyətinin istehsal prosesinə qoşulması ilə ortaya çıxmışdır. Buna görə də səmərəliliyi istehsal prosesinə xas olan bir kateqoriya kimi ilə təqdim edilir və onun bütün mərhələlərinə şamil olunduğu görünür. İqtisadi əlaqələrin hər bir səviyyəsində səmərəlilik öz ifadəsini və həqiqi təcəssümünü tapır. Daha dəqiq desək, səmərliliyin yaranma bazasının istehsal prosesi olduğunu desək fikrimcə yanılmarıq.

Səmərəliliyin qiymətləndirilməsinə dair müasir yanaşmalar onun müxtəlif təsnifatları ilə əlaqələndirilir. Ən sadə formada səmərəlilik qiymətləndirilməsi aşağıdakı kimi ola bilər:

$$semerelilik = \frac{çekilen\ xerc}{elde\ edilen\ xerc}$$

**Xarici ticarət əlaqələrinin səmərəliliyinin müəyyənləşdirilməsinin metodoloji əsasları.** Xarici ticarət əlaqələrinin səmərəlilik prinsipləri əsasında qurulması ideyası XVIII əsrdən etibarən başlasmış və hal-hazırkı günümüzə qədər də davam edir. Məhz A.Smit və D.Rikardo iki ölkə arasında əmtəə mübadiləsini müqayisə edərək ölkələrin hansı məhsullar üzrə mütləq və ya müqayisəli üstünlüklərə malik olması və bu üstünlüklər üzrə ixtisaslaşma ideyasını irəli sürmələri əslində iqtisadiyyatın səmərəli prinsiplər əsasında qurulması ideyası ilə bağlıdır[**1.səh 101**]. Doğrudur, səmərəlliklə bağlı bu ideyalar sonradan mütəlif alimlər tərəfindən daha da genişlədilmiş və dərinləşdirilmişdir. Bunun səbəbi isə səmərəliliklə bağlı baxışların daima inkişafı və təkmilləşməsidir. Xarici ticarətin səmərlilik prinsipləri əsasında qurulması şərtlərindən birincisi məhz ölkələrin açıqlıq dərəcəsi ilə bağlıdır.

Açıq iqtisadiyyat şəraitində xarici ticarət milli iqtisadiyyatda güclü təsir potensialına malik olur. Belə ki, ölkədə istehsal olunan milli məhsullar xarici bazarlarda realizə olunmaq imkanları olur və həmin məhsulların rəqabətədavamlı nəticədə isə ölkəyə xarici valyuta daxil olmaları artır və milli valyutanın məzənnəsi yüksəlir. Eyni zamanda idxal isə müəyyən daxili təlabatı ödəməklə idxal inflyasiyasını da şərtləndirir. Xarici ticarətin beynəlxalq iqtisadi münasibətlərdə rolunun durmadan artması və inkişaf tendensiyasının müsbət istiqamətdə dəyişdirməsi dünyanın bir çox iqtisadçısını xarici ticarətin artımı ilə dünya istehsalının artımı və əhalinin rifah səviyyəsinin yüksəlməsi arasında əlaqənin qiymətləndirilməsi üçün yeni-yeni metodlar və medellər qurmasını zəruri etmişdir.

Məlumdur ki, hər hansı bir ölkənin iqtisadi inkişaf səviyyəsi nə qədər yüksəkdirsə, onun, xarici iqtisadi əlaqələrinin formaları bir o qədər aktiv və müxtəlifdir. Bu səbəbdən də ölkənin dünyanın iqtisadi proseslərində aktiv iştirakı onun iqtisadi inkişaf səviyyəsini əks etdirir. Beynəlxalq iqtisadi münasibətlər sistemində iştirak edən hər bir dövlət calışır ki, xarici iqtisadi və ticarət əlaqələrini səmərəlilik prinsipləri əsasında qursun.

Dünya bankının ekspertlərindən olan D. Dollar, A. Kraay ticarət, artım və yoxsulluq adlı hesabatda göstərirlər ki, açıq iqtisadiyyatlı ölkələrdə xarici ticarətin qapalı iqtisadi sistemlərlə müqayisədə iqtisadi artıma verdiyi tövhə 2,2%-2,5% artıq olur[2.22]. Beynəlxalq təcürbə göstərir ki, iqtisadiyyatın açıqlıq dərəcəsinin arması birbaşa xarici investisiyaların da ölkə iqtisadiyyatına investisiya yerləşdirilməsini stimullaşdırır.

İqtisadiyyatın açıqlıq dərəcəsi deyərkən adətən ixracın, idxalın ÜDM nisbəti 10%-dən artıq olarkən bu ölkə iqtisadi baxımdan açıqlıq dərəcsinə malik olan ölkə kimi xarakterizə olunurdu. Əgər ölkənin ixrac kvotası nə qədər çoxdursa deməli, ölkə beynəlxalq iqtisadi münasibətlərdə bir o qədər çox iştirak edir. Bəzi iqtisadi ədəbiyyatlarda açıqlıq dərəcəsi idxal, ixrac kvotası kimi də xarakterizə olunur.

$$IXRAC_{kvotasi} = \frac{Ixrac}{UDM} * 100\%$$

Xatırladaq ki, bu göstərici Hollandiyada-57%, Luksenburqda-40%, İsveçdə-34%, İsveçrədə-32%, Yaponiyada-12%, Fransada-23%, İtaliyada-22%, Böyük Britaniyada-19%-dir. İdxal kvotasi isə aşağıdakı kimidir.

$$IDXAL_{kvotasi} = \frac{Idxal}{UDM} * 100\%$$

Həmçinin, bu göstərici Fransada -23%, İtaliyyada-22%, ABŞ-da-14%, Yaponiyada- 10%-dir. Bundan başqa beynəlxalq təcürbədə milli istehlakda idxalın payı da hesablanır.

Bir çox iqtisadçı iqtisadiyyatın açıqlıq dərəcəsi ilə bağlı qeyri-tarif məhdudiyyətlərinin də azaldılması ideyasını irəli sürür. Ümumdünya ticarət təşkilatının statistik məlumatlarına görə, inkişaf etmiş ölkələr arasında qeyri-tarif məhdudiyyətlərinin yayılması açıq şəkildə azalma tendensiyasına malikdir. Məsələn, 1998-2012-cı illərdə ABŞ-da qeyri-tarif məhdudiyyətləri idxalda payı 16,7%-dən 7,7% -ə, Yaponiyada isə 8,6% -dən 7,4% -ə aşağı düşmüşdür[3]. Nəticədə beynəlxalq ticarətin ümumi həcmi artmış və dünya bazarında məhsul çeşidinin genişlənmişdir.

Ümumiyyətlə, idxalın həcminin artması istehlak üçün istifadə olunan çeşidlərin sayının artmasını, daxili rəqabətin güclənməsini şərtləndirir. Həmçinin həddən artıq idxalın artması milli istehsalın azalmasına və ölkə iqtisadiyyatının idxaldan aslı olmasına gətirib çıxa bilir.

Son dövrlər Çin dövlətinin iqtisadi baxımından dünyanın lider ölkə kimi önə çıxması bu ölkənin iqtisadiyyatını mütəxəssislər tərəfindən geniş şəkildə təhlil edilməsinə gətirib çıxarmışdır. Məlum olmuşdur ki, Çin dövlərinin iqtisadi baxımdan dünyanın iqtisadi baxımdan lider dövlətə çevilməsinin üç əsas səbəb vardır [4]:

1. İslahatların davamlı hal alması;
2. Xarici iqtisadi əlaqələrin leberallaşması və iqtisadiyyatın açıqlıq dərəcəsinin artması;
3. İxtisaslaşmanın yüksəlməsi.

Təbii ki, islahatlar, xarici iqtisadi əlaqələrin leberallaşması və iqtisadiyyatın açıqlıq dərəcəsi xarici investisiyaların axınını təmin etmiş və Çin dövləti beynəlxalq əmək bölgüsündə səmərəli iştirak etmək üçün özünün malik olduğu müqayisəli üstünlükləri reallaşdırmağa və bununlada iqtisadiyyatda ixtisaslaşma, iqtisadiyyatın diversifikasiya-sına nail olunmuşdur.

Ümumdünya ticarət təşkilatı (ÜTT) XXI əsrin əvvəllərində dünya üzrə ixrac kvotasının orta dəyərlərini 20% müəyyən etmişdir. Bu göstərici sənaye baxımından inkişaf etmiş ölkələrdə 27%, inkişaf etməkdə olan ölkələrdə 12% təşkil etmişdir[6].

Xarici iqtisadi fəaliyyətlə bağlı olan ədəbiyyatların təhlili əsasında hesab etmək olar ki, ölkənin beynəlxalq iqtisadi münasibətlər sistemində iştirak səviyyəsinin həddini bidirən iki amil mövcuddur:

–Ölkə ərazisinin böyük və ya kiçik olması;

–Daxili bazarın həcmivə ya səviyyəsi.

Ərazi baxımdan kiçik və daxili bazarı (tələbatı) məhdud olan ölkələr daha çox ixrac meyilli olurlar. Bunun nəticəsidir ki, dünya iqtisadi formunun nəticələrində həmişə ərazi baxımından kiçik olan ölkələr daha çox ilk sıralarda olur. Ərazi baxımdan böyük və daxili bazarı böyük olan ölkələr isə ixrac və idxalda payı elədə də böyük olmur.

Milli iqtisadiyyatın beynəlxalq iqtisadi münasibətlərə cəlbolma səviyyəsini keyfiyyət baxımından xarakterizə etmək üçün hazır sənaye məhsulunun ixracın strukturunda xüsusi çəkisini müəyyən etmək lazımdır. İnkişaf etmiş ölkələrdə bu göstərici ümumi ixracının 40-50% arasında olur. Beynəlxalq təcürbədə ticarətin səmərəlliliyinin qiymətləndirilməsi üçün müxtəlif yanaşmalardan istifadə edilir. İstər inkişaf etmiş və istərsədə inkişaf etməkdə olan ölkələrin xarici iqtisadi əlaqələrinin səmərəliliyinin qiymətləndirilməsi üçün aşağıdakı meyyarlardan istifadə edir.

**Cədvəl 1.** İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin xarici iqtisadi əlaqələrinin səmərəlilik göstəriciləri [7]

| Əmsal | Formula | İnkişaf etmiş ölkələr üçün | İnkişaf etməkdə olan ölkələr üçün |
|---|---|---|---|
| A | $\frac{E}{I}$ | ≥100% | ≥100% |
| B | $\frac{FDI}{GDP}$ | ≥15% | ≥10% |
| Ç | $\frac{GDP}{ED}$ | ≥113% | ≥170% |

Burada; A—İdxalın ixracla örtmə nisbəti,%;
B — xarici birbaşa investisiyaların ÜDM-də payı, %;
Ç — ümumi daxili məhsulun xarici borca nisbəti %;
E — ixrac, İ — İdxal, FDİ — birbaşa xarici investisiya, ED — Xarici borc;
GDP — ümumi daxili məhsuldur.

Həmçinin ölkənin istər beynəlxalq və istərsə də ayrı-ayrı ölkələrdən xarici borc cəlb edərkən ilk növbədə əhəmiyyət verilən məsələlərdən biri də ondan ibarətdir ki, xarici kreditorlara olan borclarını ödəmək imkanını qiymətləndirməklə bağlıdır. Bunu müəyyən etmək üçün aşağıdakı yanaşmadan istifadə edilir:

$$\frac{xalis\ xarici\ valyuta\ ehtiyyatları}{ümumi\ idxalin\ hecmi} * 12\ ay$$

Əgər bu güstərici üç aylıq idxalı ödəməkdən aşaşı səviyyədə olarsa, ölkənin ödəmə qabiliyyəti qeyri-qənaətbəxş qiymətləndirilir və yeni kreditlərin alınması imkanı məhdudlaşdırılır.

Təcürbə təsdiqləyir ki, ki, hansı ölkə iqtisadi və ərazi baxımdan böyükdürsə həmin ölkənin iqtisadi münasibətlərə cəlbolma səviyyəsini əmsalı kiçik və əksinə hansı ölkə kiçikdirsə onun iqtisadi münasibətlərə cəlbolma səviyyəsini böyük olur. Başqa sözlə kiçik ölkələr daha çox ixrac və idxala meyilli olur. Qeyd etmək lazımdır ki, bu göstərici milli iqtisadiyyatın beynəlxalq iqtisadi münasibətlərə cəlbolma səviyyəsini kəmiyyət baxımından xarakterizə edir.Belə hal inkişaf etmiş ölkələr üzüç daha çox xarakterikdir.

**Cədvəl 2.** Xarici iqtisadi ticarətə dair bəzi qiymətləndirmə göstəricilərinin metodikası [8]

| *Göstəricinin adı* | *Hesablama forması* | *Qısa izahı* |
|---|---|---|
| İxrac kvotası | $İxrac_{kvotası} = \frac{Ix}{ÜDM} * 100$ | İx-ixracın həcmi |
| İdxal kvotası | $İdxal_{kvotası} = \frac{Id}{ÜDM} * 100$ | İd-idxalın həcmi |
| Xarixi ticarət kvotası | $XTD = \frac{XTD}{ÜDM} * 100$ | XTD-xarici ticarət dövriyyəsi |
| Beynəlxalq rəqabət qabiliyyət əmsalı (xarici ticarət balansı) | $\frac{Ix - Id}{ÜDM}$ | ÜDM-Ümumi Daxili Məhsul |
| Xarici ticarətin dövriyyəsinin elastiklik əmsalı | $\frac{XTDInd}{UDM\ indeksi}$ | XTD indeksi, ÜDM indeksi |
| ixracın artım əmsalı | $\frac{İxInd}{UDM\ indeksi}$ | İxind- ixrac indeksi |

Cədvəl 2-in məlumatları göstərir ki, ölkə iqtisadiyyatın beynəlxalq iqtisadi münasibətlərə cəlbolma səviyyəsini həmçinin ixracın elastiklik səviyyəsi ilə də müəyyən edilir. Belə ki,bu göstərici ixracın artım temrinin ölkənin ÜDM-nın artım tempinə nisbəti kimi müəyyən edilərək hesablanılır.

Əgər bu nisbət vahiddən böyukdirsə deməli ölkə iqtisadiyyatı beynəlxalq iqtisadi münasibətlərə yüksək səviyyədə cəlbolunur.

Beynəlxalq təcürbədə ixracın səmərəliliyinin müəyyən olunmasında istifadə olunan digər bir göstərici kimi ixracın diversifikasiya əmsalını misal göstərmək olar. Təcürbədə onun hesablanmasının müxtəlif medelləri mövcuddur. Metodoloji baxımdan diversifikasiya əmsalı aşağıdakı kimidir.

$$D = \frac{S^2}{S_1^{\;2} + S^2{}_2 + ..S^2{}_n} \;;\; 1 \leq D \leq n$$

D - iqtisadiyyatın diversifikasiya əmsalını, S - iqtisadiyyatın sahələrini göstərir. Xatırladaq ki, diversifikasiya əmsalı 1 ilə n arasında dəyişir. Diversifikasiya əmsalının vahidə yaxın ədəd alması mənfi, n-ə yaxın bir ədəd alması isə müsbət hal hesab edilir.

Bunlardan başqa ölkə iqtisadiyyatında sahədaxili ticarətin daha çox hansı sahəsinin inkişaf etdiyini və daha çox aktiv olduğunu müəyyən etmək üçün istifadə edilən göstərici Grubel-Lloyd indeksidir (G-L). Bu indeks aşağıdakı kimidir[10].

$$I = \left[\left(\sum(X_i + M_i) - \sum|X_i - M_i|\right) / \sum(X_i + M_i)\right] * 100$$

Burada; I – Grubel-Lloyd indeksini, *Xi* və *Mi*– müvafiq olaraq i sektorunda idxal və ixracı göstərir. Xatırladaq ki, indeksi 0(sıfır)– la, 100 arasında dəyişir. Sıfır olması sahədaxili ticarətin tam olmamasını, 100-ə isə istehsal məhsulları ilə tam inteqrasiya olunmuş ticarətin olduğunu göstərir. Ümumiyyətlə İndeks nə qədər yüksək olsa, sahədaxili ticarətin faizi o qədər yüksək olur.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, xarici ticarət əlaqələrinin səmərəliliyi dedikdə-bu sahədə fəaliyyət göstərən bütün subyektlərin fəaliyyətinin yekun nəticəsi kimi qiymətləndirmək olar. Xarici ticarət əlaqələrinin səmərəliliyinin qiymətləndirilməsində ən mühum və prinsipial məqam ondan ibarətdir ki, bu götərici hansı maraqlardan qiymətləndirilir. Başqa sözlə xarici ticarət əlaqələrinin səmərəliliyinin qiymətləndirilməsini bu sferada fəaliyyət göstərən yerli və xarici müəssisələrin maraqları baxımından, cəmiyyətin maraqları baxımından, dövlətin və s. maraqlar baxımından qiymətləndirmək olar. Bizim araşdırdığımız elmi tədqiqat işində xarici ticarət əlaqələrinin səmərililiyi yalnız dövlət maraqları baxımından yanaşılmışdır.

**Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin səmərliliyinin qiymətləndirilməsi.** Məlum olduğu kimi, hər hansı bir ölkənin xarici ticarət əlaqələrinin səmərəliliyini qiymətləndirərkən adətən ilk növbədə həmin ölkənin beynəxalq ticarətə cəlbolunma səviyyəsini müəyyən edilir. İqtisad elmində bununla bağlı nəzəri yanaşmalara baxıdıqda görürük ki, bu adətən ixracın, idxalın və xarici ticarət dövriyyəsinin ÜDM nisbəti kimi müəyyən edilir. Bəzi iqtisadi ədəbiyyatlarda bu ixrac, idxal və XTD kvatası da deyilir.

**Cədvəl 3.** ÜDM-də XTD-nın, İdxal və İxracın xüsusi çəkisi və XİF bağlı vergilər (faizlə)

| İllər | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| ÜDM-da XTD-in payı | 60.7 | 61.7 | 70.9 | 71.4 | 57.1 | 61.9 | 66.9 |
| ÜDM-da idxalın payı | 23.9 | 22.3 | 25.6 | 29.5 | 25.3 | 21.3 | 18.5 |
| ÜDM-da ixracın payı | 36.8 | 39.4 | 45.3 | 41.9 | 31.8 | 40.6 | 48.4 |

*Qeyd:* Cədvəl DSK-nin məlumatları əsasında hazırlanıb.

Dünya iqtisadiyyatının qloballaşdığı və beynəlmilləşdiyi üçün bir çox iqtisadi göstəricilər beynəlxalq səviyyədə qiymətləndirilir və ölkələr üzrə reytinqlənir. Elə göstəricilərdən biri də dünya iqtisadi formu çərçivəsində 139 ölkənin qlobal ticarətə cəlbolunma indeksinin də hesablanması ilə bağlıdır. (Global Enabling İndex). Qeyd edilən tədqiqatda ölkə iqtisadiyyatlarının beynəlxalq ticarətə açıqlığının dörd əsas göstəricisini təhlilli təqdim edir:

1. Daxili bazara çıxış.
2. Sərhədlərdə inzibati idarəetmə.
3. Biznes mühiti.
4. Nəqliyyat və kommunikasiya infrastrukturu.

Bu göstəricilərin təhlili əsasında beynəlxalq ticarətdə cəlbolunma indeksi üzrə dünya ölkələrinin yekun reytinqi tərtib edilir. Bu məlumatlarına görə Azərbaycanın beynəlxalq ticarətə cəlb olunma indeksi 139 ölkə arasında 3.4 balla 71-ci yerdə olmuşdur. Ölkəmizin 139 ölkə arasında 71-ci olması təqribən 51% bərabərdir. Azərbaycanın XTD-nin ÜDM-də payı təhlil olunan dövrdə 51%-dən çox olmuşdur. Ümumiyyətlə, bildirək ki, qeyd edilən hesabatda Sinqapur-1-də, İsveç-4-də, Hollandiya -7-də, Yaponiya- 18-də, ABŞ-23-də qərarlaşmışdır[**40.s.60**].

Xarici ticarət əlaqələrindən səmərəli istifadə etmə göstəricilərindən biri də elastiklik əmsalıdır. Nəzəri yanaşmaya əsasən ixrac və ya idxal üzrə elastiklik əmsalının vahiddən yuxarı qiymətləri iqtisadiyyatın açıqlıq dərəcəsinin artdığını, vahiddən az qiymət alması isə vəziyyətin dəyişməz qaldığını yəni, açıqlığın dəyişmədiyini (əvvəlki vəziyyətin saxlandığını) göstərir. Beynəlxalq səviyyədə elastiklik əmsalı xarici ticarət dövriyyəsinin mütləq səviyyəsinin də yəni, adambaşına düşən göstərici ilə birlikdə nəzərə alınmasını göstərır. Bu baxımdan biz də tədqiqatımızda belə yanaşmadan istifadə edirik.

Əgər xarici ticarət əlaqələri ölkədə iqtisadi artımı stimullaşdırdığı və istehsalın strukturuna təsir göstərə biləcəyi həcmdədirsə onda, elastiklik əmsalı vahiddən (1-dən) bir qədər çox olsa belə, iqtisadiyyatın açıqlıq dərəcəsi nisbətən böyük olur. Əgər xarici ticarət dövriyyəsinin səviyyəsi ölkənin iqtisadi inkişaf dövrü baxımından, nisbətən sabit dövr (baza dövrü) kimi götürülən səviyyəni ötmürsə, o zaman ölkənin xarici iqtisadi əlaqələrinin inkişafı ləng gedir ki, bu da iqtisadiyyatın açıqlıq dərəcsinin verdiyi faydalardan, səmərəlilikdən yaralanmağı çətinləşdirir və beynəlxalq əmək bölügüsünün üstünlüklərindən səmərəli istifadə olunmadığını göstərir. Buna görə də iqtisadiyyatın açıqlıq meyyarlarından istifadə edərək, iqtisadi geriliyin aradan qaldırılması və minimum sənaye kompleksinin yaradılması vacibdir. Xüsusən də ixracın strukturunda sənaye məhsularının xüsusi çəkisinin artırılması və buna müvafiq ixrac və idaxlın elastiklik əmsalının vahiddən böyük olması vacibdir.

**Cədvəl 4.** XTD, idxal, ixrac üzrə elastiklik əmsalları, adambaşına düşən XTD, ixrac və qeyri-neft (faizlə və ABŞ dolları ilə)

| İllər | İdxal üzrə elastiklik əmsalı | Ixrac üzrə elastiklik əmsal | Adambaşına düşən XTD ABŞ dolları ilə | Adambaşına düşən ixrac ABŞ dolları ilə | Adambaşına düşən qeyri-neft ixrac ABŞ dolları ilə |
|---|---|---|---|---|---|
| 2012 | 0.95 | 0.93 | 4.744 | 3.699 | 176.2 |
| 2013 | 1.03 | 0.95 | 4.655 | 3.510 | 183.8 |
| 2014 | 0.83 | 0.96 | 4.158 | 3.189 | 172.5 |
| 2015 | 0.98 | 0.99 | 2.690 | 1.730 | 159.0 |
| 2016 | 0.92 | 1.34 | 2.225 | 1.351 | 119.1 |
| 2017 | 0.84 | 0.93 | 2.473 | 1.578 | 143.5 |
| 2018 | 0.99 | 0.99 | 3.211 | 2.053 | 158.1 |
| 2019 | 0.91 | 0.97 | 3.312 | 1.943 | 178.6 |
| 2020 | 0.67 | 0.92 | 2.404 | 1.338 | 170.1 |
| 2021 | 0.71 | 0.96 | 3391 | 2220.8 | 257.5 |
| 2022 | 0. 78 | 0.98 | 5268.5 | 3814.7 | 285.7 |

*Qeyd:* Cədvəl www.stat.gov.az/source/trade/ məlumtları müəllif tərəfindən əsasında hesablanmışdır.

Cədvəl məlumatları göstərir ki, 2017-ci ildən hal-hazırki dövrə qədər hesablanan elastiklik əmsallarında ətalətlilik və adambaşına düşən XTD, ixrac və qeyri-neft ixracın həcmində isə artım görünmür, əksinə müəyyən bir azalma meyli vardır. Deməli, ölkədə xarici ticarət əlaqələrinin inkişafı ləng gedir, iqtisadiyyatın açıqlıq dərəcsinin verdiyi faydalardan, səmərəli istifadə olunmur. Belə

mənfi meylin səbəblərindən biri 2020-ci ildə qlobal aləmdə olan Covid-19 problemi ola bilər. Yəni iqtisadiyyat tam olaraq irəlləyişə keçə bilməyib. Digər tərəfdən isə ölkənin "Gələcəyə Baxış" konsepsiyasında göstərilmişdir ki, 2020-ci ildə Azərbaycanın rəqabətqabiliyyətli ölkə olacağı və qeyri-neft ixracının adambaşına düşən həcmi min 1000(min) ABŞ dollarına çatması planlaşdırılmışdır [9]. Beynəlxalq təcürbənin mütərəqqi inkişaf baxışına əsaslanaraq onu da bildirək ki, ölkənin ixracının strukturu o zaman səmərəli hesab olunur ki, ümumi ixracın 30%-40% hazır sənaye məhsulları təşkil etmiş olur.

**Cədvəl 5.** Xarici iqtisadi əlaqələrin səmərəlilik göstəriciləri göstəriciləri

| İllər | İxrac kvotası% | $\frac{E}{I}$ (%) | $\frac{FDI}{GDP}$ (%) | $\frac{GDP}{ED}$ (%) | İqtisadi artım % |
|---|---|---|---|---|---|
| 2014 | 30 | 237.6 | 38.2 | 1128 | 102.8 |
| 2015 | 25 | 138.1 | 38.1 | 489 | 101.1 |
| 2016 | 38 | 158.5 | 40 | 464 | 96.9 |
| 2017 | 39 | 174.4 | 36 | 424 | 100.1 |
| 2018 | 43 | 170.0 | 34 | 502 | 101.4 |
| 2019 | 42 | 143.7 | 32 | 509 | 102.5 |
| 2020 | 32 | 128.0 | 31 | 480 | 95.7 |
| 2021 | 41 | 189.7 | 27.2 | 1176.1 | 105.6 |
| 2022 | 49 | 262.4 | 21.8 | 742.0 | 104.6 |

*Qeyd:* Cədvəl müəlif tərəfindən tərtib edilib.

Dünya Bankının xarici iqtisadi əlaqələrin səmərəlilik göstəriciləri ilə bağlı təhlili göstərir ki, Azərbaycan iqtisadiyyatı qeyd edilən meyyarla bağlı vəziyyəti qənaətbəxşdir.

Azərbaycan xarici ticarət əlaqələrini təhlil edən əksər iqtisadçı alimlərin elmi əsər və məqalələrində ixracın 90%-nin karbohidrogen məhsulları olduğunu, idxalın isə daha çeşidli olduğunu qeyd edilib və bunu dövrü olaraq ixrac və idxalın strukturuna baxdıqda da görmək mümkündür.

Nəzəri-metodoloji hissədə qeyd etdiyimizə əsaslanaraq ölkənin xarici ticarətinin idxal və ixrac məhsullarının strukturunun diversifikasiya əmsalı aşağıdakı kimi göstərmək olar.




**Şəkil 1.** Azərbaycanın xarici ticarətinin diversifikasiya əmsalı [9]

2012-2022-ci illərdə 97 əmtəə strukturu üzrə ixracda neft və neft məhsulları dominantlıq təşkil etdiyi üçün təhlil olunan dövrdə ixrac məhsulların diversifikasiyası aşağı olduğu görünür. Həqiqətən də ixracın strukturundan neft və neft məhsullarının həcmini çıxsaq qeyri-neft məhsullarının ixracı 2 milyard ABŞ dollarından yuxarı olmayacaqdır. İdaxl məhsullarının isə diversifikasiya əmsalı daha

geniş olduğu statistik rəqəmlərdən aydın görünür. İdxal üzrə diversifikasiya əmsalı ən yüksək 2017-ci ildə 22.6 əmsal aldığı müşahidə edilmişdir.

**Cədvəl 6.** Grubel-Lloyd indeksi [9]

| Illər | Grubel-Lloyd indeksi |
|---|---|
| 2017 | 18.6 |
| 2018 | 15.0 |
| 2019 | 16.6 |
| 2020 | 16.5 |
| 2021 | 20.2 |
| 2022 | 27.2 |

Cədvəl www.stat.gov.az əsasında müəllif tərəfindən əsasında hesablanmışdır

Xarici ticarət əlaqələrinin səmərəliliyini qiymətləndirərkən Grubel-Lloyd indeksinin mahiyyəti ondan ibarətdir ki, xarici ticarət əlaqələrində ixztisaslaşma artıqca buna müvafiq olaraq məhsuldarlıq və iqtisadiyyatın miqyası da artır. Belə olan halda isə iqtisadiyyatın diversifikasiyası da artır. Bütün bunlar isə iqtisadiyyatın rəqabət qabiliyyətini artırır ki, bu da nəticədə ölkə iqtisadiyyatının iqtisadi şoklara qarşı dayanıqlığını gücləndirir. Azərbaycan iqtisadiyyatında isə Grubel-Lloyd indeksi təhlil olunan dövrdə 40 faizlik bir əmsal da belə almamışdır. Deməli, ölkə iqtisadiyyatının rəqabətqabiliyyəti aşağı, ixtisaslaşma zəif və xarici ticarətdə satılan məhsulların isə məhsuldarlıq göstəriciləri aşağıdır.

**Nəticə.** Azərbaycan Respublikasının ticarət əlaqələri və onun smərəliliyi sisteminin təhlili onu göstərir ki, ölkənin ixrac potensialını düzgün qiymətləndirilməlidir. Milli iqtisadiyyatın beynəlxalq iqtisadi münasibətlərə cəlbolma səviyyəsini keyfiyyət baxımından xarakterizə etmək üçün hazır sənaye məhsulunun ixracın strukturunda xüsusi çəkisini müəyyən etmək lazımdır. İnkişaf etmiş ölkələrdə bu göstərici ümumi ixracının 40-50% arasında olur. Bu amilin nəzərə alınması milli ixracın inkişafı baxımından əhəmiyyətli olardı. Grubel-Lloyd indeksinin təhlili onu deməyə əsas verir ki, ölkə iqtisadiyyatının rəqabətqabiliyyəti aşağı, ixtisaslaşma zəif və xarici ticarətdə satılan məhsulların isə məhsuldarlıq göstəriciləri aşağıdır.

Azərbaycan ixracının səmərəliliyinin yüksəlməsi üçün qlobal dəyər zəncirinə qoşulma prosesinin başlanılması, ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyət kəsb edən sahələrinin inkişafının stimullaşdırılması, ixracatçılara maliyyə dəstəyi sisteminin təmin edilməsi, orta və kiçik biznesi təşkil edən ixracatçılara aktiv informasiya və maliyyə dəstəyinin təmin edilməsi və xarici ticarət əməliyyatlarını dəstəkləmək üçün institusional mexanizmlərin yaradılmasının təmin olunması əhəmiyyətli olar.

## Ədəbiyyat


1. Мартьянова О.В. 2014. Оценка эффективности внешнеторговых операций “Аудит и финансовый анализ”. с.99- 115
2. Dollar D., Kraay A. 2021. Trade, Growth, and Poverty. Research Paper. The World Bank
3. Лебедев Д.С. 2014. Российский внешнеэкономический вестник Ярославль. с.57-72
4. Schwab-Geneva K. 2019. The Global Competitiveness Report: Insight Report. World Economic Forum. c.383
5. The Global Enabling Trade Report 2016
6. www.sugarua.com
7. Ахмад Х. 2016. Влияние внешней торговли на экономическое развитие. Объединённых Арабских Эмиратов. Интернет-журнал Науковедение. Том 8

8. Растворцева С.Н., Фаузер В.В., Задорожный В.Н., Залевский В.А. 2011. Внешнеэкономическая деятельность российских предприятий в условиях глобализации. Санкт-Петербург. с.118
9. “Azərbaycan 2020: Gələcəyə baxış “inkişaf konsepsiyası
10. Документ Всемирного банка “Показатели внешней торговли и конкурентоспособность”. 2016. с.56

**References**

1. Mart'yanova O.V. 2014. Ocenka effektivnosti vneshnetorgovyh operacij “Audit i finansovyj analiz”. s.99- 115
2. Dollar D., Kraay A. 2021. Trade, Growth, and Poverty. Research Paper. The World Bank
3. Lebedev D.S. 2014. Rossijskij vneshneekonomicheskij vestnik YAroslavl'. s.57-72
4. Schwab-Geneva K. 2019. The Global Competitiveness Report: Insight Report. World Economic Forum. c.383
5. The Global Enabling Trade Report 2016
6. www.sugarua.com
7. Ahmad H. 2016. Vliyanie vneshnej torgovli na ekonomicheskoe razvitie. Ob"edinyonnyh Arabskih Emiratov. Internet-zhurnal Naukovedenie. Tom 8
8. Rastvorceva S.N., Fauzer V.V., Zadorozhnyj V.N., Zalevskij V.A. 2011. Vneshneekonomicheskaya deyatel'nost' rossijskih predpriyatij v usloviyah globalizacii. Sankt-Peterburg. s.118
9. “Azerbayjan 2020: Gelejeye baxish “inkishaf konsepsiyasi
10. Dokument Vsemirnogo banka “Pokazateli vneshnej torgovli i konkurentosposobnost'”. 2016. s.56

*Məqaləyə istinad: Aslanova T.T., Fətahova N.R. Azərbaycan respublikasının xarici ticarət əlaqələrinin səmərliliyinin qiymətləndirilməsi. Elmi əsərlər/ Scientific works, AzMİU, s.123-131, N1, 2024*
*For citation:. Aslanova T.T., Fatahova N.R. Evaluation of the effectiveness of foreign trade relations of the Republic of Azerbaijan. Scientific works/ Elmi eserler. AzUAC, p.123-131, N1, 2024*

Redaksiyaya daxil olma/Received 8.09.2023
Çapa qəbul olunma/Accepted for publication 8.12.2023